**https://doi.org/10.58225/tim.2025-1-107-111**

**M.R.Dadaşzadə**
***ORCİD 0009-0008-9406-4019***
***doktorant, Azərbaycan Kooperasiya Universiteti***
***dadashzademaya@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 08.02.2025*
*The article was received by editorial board on 08.02.2025*
*Статья принята к печати 08.02.2025*

# COP-29: YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK

**Xülasə**

*Bəşəriyyət hazırda bir çox qlobal problemlərlə üz-üzə qalmışdır. Bu problemlərdən biri və bəlkə də, ən birincisi insanları gözlənilmədən yaxalayan, onları ağır sınaqlara çəkən təbii fəlakətlərdir. Təqdim olunan məqalədə dünyəvi təbii problemlər diqqətə alınmaqla planetdə davam edən qlobal istiləşmə prosesi, onu doğuran səbəblər və onların acı nəticələri təhlil olunmuş, bütün dünya ölkələrini narahat edən təbii fəlakətlərin qarşısını almaq üçün səyləri birləşdirmək məqsədilə BMT səviyyəsində təşkil olunan COP- İqlim Dəyişmələri üzrə Tərəflərin Konfransının mahiyyəti, keçirilmə tarixi, Yaşıl iqtisadiyyat, Yaşıl dünya naminə həmrəylik məsələləri çərçivəsində Bakıda keçirilmiş COP29 Sammiti və onun yekunlarından bəhs olunmuşdur.*

***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, təbii fəlakətlər, qlobal istiləşmə, maddi yardım, COP29 Beynəlxalq Sammiti.*

## GİRİŞ

Çağdaş dünyamız təlatümlü təbii fəlakətlərin baş verdiyi, bəşəriyyətin qlobal siyasi,iqtisadi və təbii böhranlarla, kəskin iqlim dəyişmələri və onların acı nəticələri ilə üz-üzə qaldığı, münaqışələrin geniş və lokal səviyyələrdə baş alıb getdiyi bir dövü yaşamaqdadır. Bir tərəfdən təbii fəlakətlər, digər tərəfdən dövlətlərin toqquşan mənafelərindən yaranan müharibələr bəşəriyyəti ağır sınaqlar qarşısında qoyur. COVİD-19 kimi ölümcül yolxucu pademiyanın fəsadları hələ də davam etdiyi bir zamanda ölkələr, xüsusilə dünyanın üçüncü səviyyəli kasıb dövlətləri qlobal istiləşmədən, habelə güclü dövlətlərin qarşıdurmalarından ən çox əziyyət çəkirlər. Qida, su qıtlığı, səhiyyə xidmətlərinin aşağı səviyyədə olduğu belə dövlətlərin digər dövlətlər tərəfindən edilməsi vacib olan yardımlara ehtiyacları vardır. Məhz bu problemləri müzakirə etmək, böhranlı vəziyyətlərdən həll yolu tapmaq üçün dünya dövlətləri davamlı olaraq BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının beynəlxalq səviyyəli Sammitində (UNFCCC) bir araya gəlirlər. Konvensiyanın 198 üzvü olan dövlətlər hər il qlobal istiləşmənin qarşısının alınması, karbon emissiyalarının, istixana effektlərinin həcminin azaldılması, habelə təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması üçün səylərin birləşdirilməsi, dünyanın kasıb ölkələrinə maddi yardımın göstərilməsi, Yaşıl Dünya naminə həmrəy olmağa çağırışlarıyla çıxış edirlər. 2024-cü il 11-22 noyabr tarixlərində Bakı şəhəri COP29 Beynəlxalq konfransına ev sahibliyi etmişdir. Dünyanın 176 ölkəsinin iştirak etdiyi Bakı Beynəlxalq Konfransında yaşıl enerjiyə keçidlə, planetin, ətraf mühitin çirklənmədən qorunması ilə bağlı, habelə atmosferin karbonsuzlaşdırılması, kasıb ölkələrə yardım edilməsi ilə əlaqədar mühüm məsələlər prioritet mövzular olmuşdur. Müxtəlif ölkələrdən gəlmiş nümayəndə heyətləri qeyd

olunan məsələlər ətrafinda uzunmüddətli müzakirələr aparmaqla fikir mübadiləsi etmişlər. Təqdim olunan məqalədə konfransla bağlı mülahizələr təhlil olunmuş və onlara münasibət bildirilmişdir.

**NƏZƏRİ YANAŞMA**

COP – Conference of Parties – Tərəflərin Konfransı kimi tanınan beynəlxalq konfrans 1995-ci ildən başlayaraq hər il bir ölkədə keçirilən, dünyanın bütün dövlətlərindən gəlmiş nümayəndələrin iştirak etdiyi BMT səviyyəsində beynəlxalq Sammitdir. Konfrans BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) üzvü olan 198 dövlət və Avropa İttifaqının iştirakı ilə keçirilir.

Bu konfransın keçirilmə tarixi 1992-ci ildən başlayır. Belə ki, həmin il Rio-de-Janeyroda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) imzalanmışdır. Konvensiyanının üzvü olan 198 dövlətin nümayəndələri iqlim dəyişmələrinə qarşı mübarizə aparmaq, səyləri birləşdirmək və görülmüş işlər haqqında hesabat vermək üçün BMT-nin illik beynəlxalq konfransında bir araya gəlirlər. Onlar artan qlobal istilik problemlərini, karbon emissiyalarının həcminin artmasının qarşısını almaq məqsədilə səylərin birləşdirilməsi məsələlərini müzakirə etmək üçün müxtəlif təklif və təşəbbüslərlə çıxış edirlər. Konfransların keçirilməsində başlıca məqsəd dünya dövlətlərinin diqqətini iqlim problemlərinə yönəltmək, su qıtlığının aradan qaldırılması, zəif inkişaf etmiş ölkələrə maddi dəstəyin göstərilməsi üçün səylərin birləşdirilməsi, problemlərin həlli yollarının tapılması və gələcək planların müəyyən edilməsidir. Konfransın katibliyinin qərargahı Bonn şəhərində yerləşir. 1995-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə keçirilən konfransa Berlin, Bonn, Cenevrə, Kioto, Buenos-Ayres, Haaqa, Dehli, Mərakeş, Milan, Monreal, Nayrobi, Bali, Poznan, Kopenhagen, Doha, Lima və s. kimi şəhərlər ev sahibliyi etmişlər. COP26 konfransı Qlazqoda (İngiltərə), COP27 Şarm əl-Şeyxdə (Misir), COP28 konfransı isə Dubay(BƏƏ) şəhərində keçirilmişdir. 1995-ci ildən keçirilən illik konfranslarda dünya dövlətləri iqlimlə bağlı qlobal problemlərin həll olunmasında görülmüş işlərə dair hesabat verməklə həm öz təkliflərini irəli sürürlər, həm də gələcək illər üçün görüləcək məsələləri müzakirə edirlər. Hər il konfransın hansı ölkədə keçirilməsi Konvensiyanın üzvü olan 198 dövlətin səsverməsi ilə müəyyən olunur [1].

Konvensiyanın üzvü olan ölkələr hazırda Paris Sazişinin onların qarşısında qoyduğu öhdəlikləri yerinə yetirməyə çalışır. Paris Sazişinin mahiyyətində duran əsas məsələ qlobal istiləşmənin qarşısının alınmasıdır. Belə ki, COP21 2015-ci ildə Parisdə keçirildi və bu zaman artan qlobal istilik böhranı bütün ölkələri narahat edirdi. Konfransda müzakirə olunan əsas məsələ istixana effektlərinin təsirinin azaldılması, istiliyin 2 dərəcəyə, mümkünsə 1,5 dərəcə səviyyəsinədək endirilməsinə nail olmaq idi. Bu qlobal istiləşmə böhranının qarşısını almaq üçün bütün dövlətləri narahat edən məsələ idi. Bu gün də qlobal istiləşmənin, çirklənmənin qarşısını almaq, Paris Sazişindən irəli gələn məsələlərin həlli hələ də vacib problem olaraq qalmaqdadır. Qlobal miqyasda baş verən iqlim dəyişikliklərinin ətraf mühitə olan neqativ təsirlərinin getdikcə intensivləşməsi sözügedən Sazişi zəruri edən səbəbdir.

Dubayda keçirilmiş son COP28 konfransında Konvensiyanın üzvü olan dövlətlərin səsverməsi ilə növbəti il üçün konfransın ev sahibi olaraq Azərbaycan dövləti seçilmişdir. Bu, dünya dövlətlərinin Azərbaycana böyük etimadı kimi dəyərləndirilə bilər. Bununla bağlı Prezident İ.Əliyev demişdir: *“COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik”* [2].

Beləliklə, BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının növbəti konfransı COP29 2024-cü ilin 11-22 noyabr tarixlərində Bakı şəhərində keçirildi. Konfransda 176 ölkədən gəlmiş 74 min nümayəndə, habelə 3 mindən artıq media nümayəndəsi iştirak edirdi. Dünyanın 80-dən artıq ölkəsi konfransda ölkə başçısı səviyyəsində təmsil olunmuşdur. BMT Konvensiyasına üzv olan çox az sayda dövlət istisna olmaqla demək olar bütün digər üzvlər COP29-da iştirak etmişlər. Konfrans iştirakçıları Yaşıl dünya naminə həmrəylik nümayiş etdirərək Yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi, qlobal istiləşmənin qarşısının alınması, neft-qaz istehsalının azaldılması, tullantıların, habelə karbon

emissiyalarının həcminin azaldılması, içməli su böhranının aradan qaldırılması kimi dünyəvi problemlərin həlli üçün çıxış yollarının tapılmasına çalışmışlar. Xüsusilə, iqlim dəyişmələrindən əziyyət çəkən dünyanın kasıb dövlətlərinə, kiçik ada dövlətlərinə inkişaf etmiş dövlətlər tərəfindən yardım göstərilməsi mühüm məsələ olaraq irəli sürülmüşdür. COP29-da bu cür ölkələrə yardımın hər il 300 milyard dollar həcmində olması razılaşdırılmışdır.

**TƏHLİL**

H.Rivsin belə bir deyimi ilə razılaşmamaq qeyri-mümkündür: *"Təbiətlə mübarizə aparırıq, qalib gəlsək, məğlub olacağıq"* [ 4, s.33]. Bu aforizmin mahiyyətində belə bir məna gizlənir ki, insan qərinələr boyunca öz ehtiyaclarını qarşılamaq üçün təbii sərvətlərdən faydalanmışdır. Bu proses indi də davam etməkdədir. Müasir iqtisadi inkişaf təbii sərvətlərin istifadəsi üzərində qurulmuşdur. İqtisadiyyatla təbiət arasında dialektik bir vəhdət vardır. Lakin təbii sərvətlərin varlığı sonsuz deyildir, bu vəhdətin pozulması təbii tarazlığı pozmuş olur. Bu isə insanlar üçün böhranlar yaradır. *"İqtisadiyyat qeyri-məhdud tələbatı ödəmək üçün təbiətin məhdud resurslarından istifadə edir...İqtisadiyyatın təbiətdə izləri çoxaldıqca, təbiətin diktəsi də artır. Təbiətlə mübarizənin perspektivi olmadığından ....iqtisadiyyat getdikcə təbiətin yaşıl rəngini alır. "Yaşıl iqtisadiyyat!"* [4, s.20]. 1989-cu ildə bir qrup Böyük Britaniyalı iqtisadçı tərəfindən işlədilən "yaşıl iqtisadiyyat" termini hazırda dünya iqtisadiyyatının ana xəttini təşkil edir. Müasir dövrümüz "yaşıl enerji"yə, "yaşıl iqtisadiyyat"a keçid dövrü olaraq səciyyələndirilir. Təbii sərvətlərə qənaət etmək məqsədilə hazırda alimlər alternativ enerji mənbələrinin axtarışı üzərində çalışırlar. Onlar külək və günəş enerjisindən istifadə etməklə yeni enerji stansiyaları qururlar. Məhz COP-lar planetdə yaşıllıqların artırılması, qorunması, təbii sərvətlərin məqsədli və şüurlu istifadəsi məsələlərinə, iqlim problemlərinin həll olunmasına, yaşıl dünya naminə həmrəyliyə çağırış olaraq keçirilir. Çağdaş dünyamızda iqlim dəyişmələrindən əziyyət çəkən milyonlarla insanlar əlverişsiz iqlim şəraiti səbəbindən aclıqla, səfalətlə, daşqınlarla, torpaq sürüşmələri, quraqlıqla üz-üzə qalırlar. Bundan təkcə insanlar deyil, digər bütün canlılar əziyyət çəkir. COP-ların mütəmadi keçirilməsi bu qlobal problemlərin həlli üçün çalınan həyəcan siqnalıdır.

İnsanın əsrlərlə təbiətə nüfuz etməsi bu gün bəşəriyyəti çətin iqlim problemləri, qlobal fəlakətlərlə üz-üzə qoymuşdur. Hər ötən saniyə yaşadığımız ətraf mühit – yerin təki, sular, hava müxtəlif formada çirkləndirilir. Meşələrin qırılması, təbii enerji mənbələrindən istifadə olunması, içməli suların çirkləndirilməsi, müxtəlif emal sənayesi tullantılarının su hövzələrinə axıdılması, artan avtomobil sayı və s. kimi qlobal problemlər mütləq dünya dövlətləri tərəfindən ciddi olaraq müzakirə olunmalı və tədbirlər görülməlidir. Son dövrlərdə enerjiyə və istehlak mallarına olan tələbatın sürətli artımı sənayenin dinamik inkişafı ilə müşahidə olunmaqla ətraf mühitə təsirsiz ötüşməmişdir. Planetdə havanın normadan artıq istiləşməsi dəniz səviyyəsindən aşağıda yaşayan dövlətlər üçün ciddi fəsadlara – sel və daşqınlara, böyük ərazilərin su altında qalmasına səbəb olur ki, bu da insanlara həyatları bahasına başa gəlir. Artıq bir çox ölkələrin alimləri planetdə gedən qlobal istiləşmə ilə bağlı ciddi məsələlər qaldırırlar. Məhz bu kimi qlobal iqlim dəyişmələri ilə bağlı məsələlər bütün dünya dövlətləri üçün təxirəsalınmaz problemlər olaraq qalmaqdadır.

İqlim dəyişmələrinin dünyəvi problemlərə səbəb olması, qlobal səviyyədə iqtisadiyyat, sosial həyat tərzi və ətraf mühit arasındakı qarşılıqlı harmoniyanın pozulması təhlükəsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri dayanıqlı inkişafla bağlı razılaşdırılmış birgə siyasət qəbul etməyə məcbur edir. "Yaşıl iqtisadiyyat" adlanan yeni iqtisadi model təbii ehtiyatlardan səmərəli istifadəni, karbon emissiyasının azaldılmasını, ətraf mühitə dəyən zərərin maksimum azaldılmasını və daha yüksək səviyyəli inklüziv sosial cəmiyyətlərin formalaşmasını nəzərdə tutur. Qeyd olunan əsas fikirləri aşağıda verilmiş diaqramda belə göstərmək olar:




Azərbaycan Respublikası BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına üzv dövlət kimi təhlükəli iqlim dəyişmələrinə qarşı mübarizənin fəal iştirakçılarındandır. Ölkəmiz 2030-cu ilədək istixana qazlarının həcmini 35%, 2050-ci ilədək isə 40% azaltmağı hədəfləyir. Prezident İ.Əliyev işğaldan azad edilmiş əraziləri "Yaşıl enerji" zonası elan edib. Bu isə o məqsədi daşıyır ki, 2050-ci ilədək bu zonalar "Netto sıfır emissiya" məkanına çevriləcək [3].

**NƏTİCƏ**

Hazırda dünya miqyasında dövlətlər yeni bir innovativ ideyanı gerçəkləşdirməyə çalışırlar. Onlar alternativ enerji mənbələri əldə etmək üçün təbiətdəki suyun, günəşin və küləyin insanlara bəxş etdiyi təbii enerjidən yararlanmağa çalışmaqla "Yaşıl enerji"yə keçidi real olaraq təmin etməyə çalışırlar. Əgər insanlar qlobal səviyyədə bu cür prosesləri yerinə yetirə biləcək innovativ texnologiyaları reallaşdıra bilsələr, bu, tonlarla yanacaq sərfiyyatıana qənaət etməklə milyonlarla kub metr həcmində karbon emissiyalarının azaldılması demək olacaq."Yaşıl iqtisadiyyat" konsepsiyasının, demək olar ki, bütün aspektlərinin əsas fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, bu konsepsiyada ətraf mühitin qorunması, iqtisadi inkişaf və sosial təhlükəsizliyin təmin edilməsi həyat keyfiyyətinin məhdudlaşdırılması hesabına reallaşmır. Bu konsepsiyadan həm milli və regional, həm də qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində strateji yanaşma olaraq istifadə etmək mümkündür. Hazırda Respublikamızda külək və günəş enerjisi ilə işləyəcək yeni enerji stansiyalarının qurulması üzərində iş gedir. Bunların gerçəkləşməsinin Respublikamız üçün mühüm əhəmiyyəti vardır. COP29 Sədrliyi tərəfindən iqlim fəaliyyəti ilə dayanıqlı inkişaf məqsədləri arasında əlaqəni ehtiva edən, yaşıl enerji dəhlizləri, yaşıl enerji saxlancları, iqlim dayanıqlılığı üçün harmoniya, təmiz hidrogen, orqanik tullantılarda metanın azaldılması, yaşıl rəqəmsal fəaliyyət və digər mövzuları əhatə edən 14 təşəbbüs irəli sürülüb [2].

COP29, habelə digər ölkələrdə indiyədək keçirilmiş BMT səviyyəli beynəlxalq konfransların ali məqsədi iqlim dəyişmələri və onların yaratdığı təbii fəsadlara qarşı mübarizədə bütün dünya dövlətlərinin öz səy və bacarıqlarını birləşdirməyə nail olmaq, habelə dünyanın kasıb dövlətlərinə maddi yardım ayırmaqla onların bu cür təbii fəlakətlərə qarşı mübarizə aparmasına dəstək olmaqdır. Çünki Yer kürəsi vahiddir və bütün insanların borcu onu qorumaqdır.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** COP-ların tarixi: 28 tədbir harada və nə vaxt keçirilib, nə müzakirə olunub... www.modern.az/

**2.** Yaşıl dünya naminə həmrəy olaq. www.COP29.az/az/home/

**3.** Nurullayeva, K. Azərbaycanın iqlim siyasətində liderlik rolu. ADU, "Poliqlot" qəzeti №4 (258) oktyabr-noyabr 2024. www.adu.edu.az

**4.** Qasımlı, V.Ə., Hüseyn R.Z., Hüseynov R.F., Həsənov, R.B., Cəfərov, C.R., Bayramova, A.B. "Yaşıl iqtisadiyyat". Bakı, 2022, "Azprint" nəşriyyatı, 280 səh.

**M.R.Dadashzade**
*PhD student, Azerbaijan Cooperation University*
*ORCID 0009-0008-9406-4019*

## COP-29: solidarity for the green world

**Abstract**

*Humanity is currently faced with many global problems. One of these problems, and perhaps the first one, is natural disasters that catch people by surprise and put them to severe trials. In the presented article, taking into account worldly natural problems, the ongoing global warming process on the planet, its causes and their painful consequences are analyzed. In order to unite efforts to prevent natural disasters that concern all the countries of the world, the essence of the COP- Conference of the Parties on Climate Change organized at the UN level, the date of its holding, the COP29 Summit held in Baku and its conclusions were discussed within the framework of Green economy and solidarity issues for the sake of a Green world.*

***Keywords:*** *green economy, natural disasters, global warming, material aid, COP29 International Summit.*

**М.Р.Дадашзаде**
*докторант, Азербайджанский Университет Кооперации*
*ORCID 0009-0008-9406-4019*

## COP-29: солидарность для зеленого мира

**Резюме**

*Человечество в настоящее время сталкивается со многими глобальными проблемами. Одной из таких проблем, а возможно и первой, являются стихийные бедствия, которые застают людей врасплох и подвергают их суровым испытаниям. В представленной статье с учетом мировых природных проблем анализируется происходящий на планете процесс глобального потепления, его причины и их болезненные последствия. В целях объединения усилий по предотвращению стихийных бедствий, которые касаются всех стран мира, в рамках «Зеленой экономики» и вопросов солидарности во имя «Зеленого мира» обсуждались суть КС-Конференции Сторон по изменению климата, организованной на уровне ООН, дата ее проведения, саммит COP29, прошедший в Баку, и его выводы.*

***Ключевые слова:*** *зеленая экономика, стихийные бедствия, глобальное потепление, материальная помощь, Международный саммит COP-29.*